**5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür**

# Qəhrəmanlar yetişdirən müəllimlərin bayramı



Dünya səviyyəsində müəllimlərin peşə bayramı 1966-cı ildən UNESCO-nun qərarı ilə Beynəlxalq Müəllimlər Günü kimi qeyd olunur. Ölkəmizdə isə bu müqəddəs peşə sahiblərinin bayramı 1993-cü ildən rəsmi status alıb.

Müəllim cəmiyyətin savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa sahib, vətən və xalq üçün ləyaqətli insan yetişməsi üçün gecəsini gündüzünə qatan cəmiyyətin qurucu memarlarıdır. Hər birimizin layiqli vətəndaş kimi yetişməsində müəllimlərimizin əvəzsiz xidmətlərini inkar etmək mümkün deyil.

Ümummilli Lider Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirmiş, onun haqqında xoş sözlər söyləmişdir: "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı namınə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir".

Ölkəmizdə son illər təhsilin inkişafına xüsusi diqqət göstərilir. Son illər ölkəmizdə heç bir dövrdə olmadığı qədər yeni məktəb tikilib, əlavə korpuslar inşa olunub. İndi Azərbaycanda elə təhsil ocaqları var ki, dünyanın inkişaf etmiş ölkələrindəki məktəblərdən fərqlənmir, hətta onları üstələyir. Sevindirici hal bir də odur ki, bu proses paytaxtla yanaşı, bütün bölgələri də əhatə edir.

Heydər Əliyev Fondunun dövlətin bu fəaliyyət proqramına verdiyi dəstək isə mükəmməlliyi ilə seçilir. Fond ölkədə məktəb tikintisində yaxından iştirakla yanaşı, onların əyani vəsaitlər, şagirdlərin məktəb ləvazimatı ilə təminatında da mühüm rol oynayır. Yeni, müasir məktəblər, yeni təhsil kompleksləri şagird kontingentinin təhsil şəraitini tamamilə dəyişir, tədrisin səviyyəsini yüksəldir. Bütün bu tədbirlər Prezident İlham Əliyevin "Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər" fikrini reallığa çevirir.

Təhsil işçilərinin əməkhaqlarının artırılması, mükafatlandırılması, orden və medal, fəxri adlarla təltif edilməsi, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar təhsil işçiləri üçün böyük stimul olmaqla yanaşı, onların məsuliyyətini də artırır. Ucqar kəndlərə işləməyə göndərilən müəllimlərə xüsusi imtiyazların verilməsi də müəllim əməyinə verilən qiymətdən xəbər verir.

Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddiaları ilə başlayan münaqişənin şanlı qələbə ilə başa çatması göstərdi ki, Prezident İlham Əliyevin Ali Baş Komandan kimi qətiyyəti, siyasətçi kimi iradəsi, diplomat kimi müdrikliyi və ordumuzun qəhrəmanlığı, xalqımızın birliyi qarşısında heç bir qüvvə dözüm gətirə bilməz.

İllərlə vətən həsrəti çəkən Zəngilan rayonunun Ağalı kənd sakinləri 19 iyul 2022-ci ildə doğma vətənlərinə geri qayıtdılar. Geri dönən ailələr içərisində mən də öz ailəmlə Ağalıya köçdük. Bu gün Ağalıda sakit, xoşbəxt, firavan həyat yaşayırıq.

Məktəbimizin açılışında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etmişlər. Bizlər dövlətimizin diqqətini, qayğısını daim hiss edirik. 19 oktyabr 2022-ci il isə biz müəllim heyəti və şagirdlərimiz üçün möhtəşəm tarixi günə çevrildi. Məhz həmin gün kollektivimiz ölkə Prezidenti və Mehriban xanım Əliyeva ilə görüşdü. Bu tarixi anları heç vaxt unutmaq olmaz. Möhtəşəm bir gün idi!

Böyük qayıdışdan sonra Qarabağda ilk təhsil ocağı olan Ağalı kənd tam orta məktəbi artıq ikinci ildir ki, fəaliyyət göstərir. Şagirdlərimizin sayı 100 nəfəri keçib, kollektivimiz də artıb. Məktəb evimiz qədər bizlərə doğma və əzizdir. Bir müəllim kimi vəzifəmiz Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, savadlı, yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir.

***Nərmin HƏSƏNOVA,***
***Zəngilan rayon Ağalı kənd orta məktəbin direktoru***

Azərbaycan.- 2023.- 5 oktyabr.- S. 11.